# ƏSRİN İMAMI, YAXUD AY İŞIĞINDA MƏKTUB

## (romandan səhifələr)



*Rövşən NOVRUZOĞLU*

### *I-FƏSİL*

Vatikan tarixinin diplomatiyasında qeyb olmuş on ikinci İmam Sahibbəzaman haqqında 250-dən artıq üstündə «Tam məxfidir» möhürü vurulmuş hələlik oxunmayan sənəd var. 1944-cü il iyunun 2-də, müqəddəs Yevgeniyanın anım günündə Roma Papası belə bir ciddi xəbərdarlıq etdi: «...Kim cəsarət edib. Vatikan sandıqlarındakı on ikinci İmamla bağlı qovluqlara hücum etsə... ən ağır cinayət etmiş olur və Allahın iradəsi əleyhinə çıxır. Və dünya sivilizasiyasının qarşısında Allahın ən ağır cəzasına düçar olub. lənətlənir... Bütün şəhərlərin, qütblərin gələcək taleyi... xanım Fatimeyi-Zəhra övladının adı ilə möhürlənmiş məxvi qovluqlardadır... Orda Azərbaycanın da, onun ayrı-ayrı şəhərlərinin də, millətin də və millət içərsindən seçilmişlərin də taleyi göstərilir...» Kardinal Tisseran isə xatırladır: «O, (yəni Həzrəti Mehdi) gələcək. Və özü də böyük bir dənizin önündə dayanıb, namaz qılacaq. Bu zaman onun yanında İsa Peyğəmbər və İmam Hüseyn duracaq... Məhz bundan sonra yer üzünün mənəvi dünyasını məhv edib, öldürən, onu sarsıdan yüz minlərlə əxlaqsız yuvaları viran qalacaq, dünyanın ən böyük məscidləri dağılıb. yerlə-yeksan olacaq, minlərlə saxta alimin boyunlarına kəndir salınıb, sürüləcək... ən möhtəşəm dini ziyarətgahlar dağılıb töküləcək...»

Bütün bunları bizə möhtərəm Məclisi də xatırladırdı.

* * *

Evimiz uzaqdan tanınırdı. Bir tərəfi ötən il qar uçqununa düşmüşdü. Sürahisi sürüşüb, yerə gəlmişdi. Üstünün damına vurulmuş suallar şaxtadan çat verib, ikiyə bölünmüşdü. Pəncərələrinə qalın kağız yapışdırmışdıq. Evimizin qabağındakı qədim armud ağacı isə bütün bu ağırlığa və yoxsulluğa baxmayaraq, hələlik torpaqdan bərk-bərk yapışıb dayanmışdı. Armudlu evimizdən beş-on ev aralı məşhur din xadimi, Ayətulla Əllamə Məclisinin evi idi. O, həmişə yollarda olduğundan az-az görünürdü. Dünyada elə bil qapalı, açıq arxiv qalmamışdı, oradan keçməsin. Fikri-zikri qeyb olan İmam idi. Onunla bağlı nə qədər açıq və yaxud bağlı arxiv sandıqları var idi. Hamısına baş vurub, sığal çəkir, imamla bağlı nə vardısa yığışdırıb, evinə daşıyırdı. Biz tez-tez kiçik, yaşıl təpələrə qalxıb, onun yolunu gözləyirdik.

O, bizə - məhəllə uşaqlarına on ikinci İmamla bağlı əldə etdikləri son yazıları oxuyardı, söhbətləri danışardı. Onun İmam haqqındakı dərsləri o qədər maraqlı olurdu ki, yatmaq yada düşmürdü. Məclisi deyirdi: Sahibbəzzaman əleyhissəlamın mübarək təvəllüdü haqqında tarixdə olan ən məşhur nəzər budur ki, o Həzrət - İmam Mehdi Əleyhissəlam 255-ci hicri ilinin miladi 869 şəban ayının 15-də, cümə gecəsi Surrəmən-rəa (Samirra) şəhərində anadan olmuşdur. Adı və künyəsi Peyğəmbərlə (s) eynidir. Lakin qeybdə olduğu müddətdə Həzrətin əsl adını çəkmək haramdır. Mübarək ləqəbləri; Mehdi, Xatəm, Müntəzər, Hüccət və Sahibdir.

Şeyx Məclisi bütün bunları həm Tehranın, həm Londonun, həm Moskvanın, Romanın ən qədim dini arxivinə verərdi. O, söhbətlərində xatırladırdı: Şeyx Səduq və Şeyx Tusi mötəbər sənədlərə əsaslanaraq Əbu Əyyub Ənsarinin övladlarından, həmçinin İmam Əliyyən-Nəqi əleyhissəlam və İmam Həsən Əsgəri əleyhissəlamın qonşusu və onların xüsusi şiələrindən olan qul taciri Bişr ibn Süleymandan rəvayət etmişlər ki, o deyir:

Bir gün İmam Əliyyən-Nəqi əleyhissəlamın xadimi Kafur mənim yanıma gəlib. İmamın məni hüzuruna çağırdığını bildirdi. Mən həzrətin yanına gedib hüzurunda əyləşdim. Həzrət buyurdu:

"Sən Ənsar övladlarındansan. Sizdə həmişə biz Əhli beytə və vilayətimizə qarşı məhəbbət olmuşdur. Siz Həzrət Peyğəmbər (s) zamanından indiyədək bizim güvənc yerimiz olmusunuz. Mən səni seçirəm ki, izah edəcəklərim səbəbi ilə bizim vilayətimizdə şiələri qabaqlayasan. Səni başqa sirlərdən agah edib kəniz göndərəcəyəm".

*Əsərlərilə, ciddi tədqiqat və araşdırma materialları ilə artıq, dünya mətbuatına çıxan politoloq, professor Rövşən Novruz oğlu Vəlizadənin məşhur çoxcildlik (8 cilddə) Azərbaycan xalqının genetikasının başına açılan uzun müddətli faciələri əks etdirən «Genetik ölüm» ikicildliyi hazırdır, yaxın günlərdə oxuculara çatdırılacaq. Amerikalı tədqiqatçı, dünyaşöhrətli politoloq öz əsərlərində bir neçə dəfə onun informasiyalarına müraciət edən Zbiqnev Kazimej Bjezinski deyirdi ki, onun çox ciddi və əhəmiyyətli informasiya dayaqları var.*

*Müəllifin təqdim olunan bu əsəri isə mövzu və sənədlər baxımından o biri əsərlərdən geri qalmır və daha ciddi tədqiqat əsəri hesab olunur. Müəllif indiyədək toxunulmayan bir mövzunu şərh edir. Zamanın sahibi İmamın - bəşərin gözlədiyi haqq və ədalət carçısı Həzrəti Mehdinin ailəsinin başına açılan müsibətlərdən, Abbasilər xilafətinin iflasa uğramış mənəvi dəyərlərindən, itkin düşən əhli-əyaldan... geniş bəhs olunur. Müəllif, əsərini dünyanın qəbul etdiyi bir məktubla başlayır, onun dil və üslubuna toxunmur. Əsərdə günümüzü əhatə edən çox mətləblər var. Onu da xatırladaq ki, rus generalı A.Axromeyev neçə il bundan qabaq verdiyi müsahibələrin birində yazırdı ki, Həzrəti·Mehdinin ən qiymətli daşın üzərinə döyülmüş möhtəşəm şəkli artıq rus kəşfiyyat idarəsinin məxfi arxivində saxlanır. Orda dünyadan qəzavü-qədərdən çıxmaq üçün şifrələr var. Əsərdə mübahisə doğuran, oxucunu polemikaya çəkən məqamlar da az deyil. Dini və elmi təsəvvürlər bir-birini əvəz edir, tarixi həqiqətlər və mistika yazıçı üslubunu yaradır. Hər halda, hər bir müəllif əsərinin dəyərini oxucu qənaətində görür. Söz oxucularındır.*

**Əli Rza XƏLƏFLİ.**

Sonra Həzrət rumluların yazısı ilə və onların dilində bir məktub yazıb üzərinə öz mübarək möhürünü vurdu. Sonra içərisində 220 əşrəfi olan qızıl kisəsi mənə verib buyurdu: "Bu məktubu və bu qızılları götürüb Bağdada get. Filan gün körpünün üstündə dayan. İçərisində əsirlər olan gəmilər sahilə çatanda, gəmilərdəki kənizləri görəcəksən. Bəni Abbas hökmdarlarının vəkilləri və bir neçə ərəb cavanlarından ibarət olan müştərilərin kənizlərin başına toplaşdıqlarını görəcəksən. Bütün gün ərzində uzaqdan Əmr ibni Yezid adlı qul satıcısına nəzər sal. O, müştərilərə aşağıdakı xüsusiyyətli kənizi göstərəcək: Qalın ipək paltar geyinibdir. O, müştərilərin ona baxmalarına, əl vurmalarına razı olmayaraq onlardan imtina edəcək. Pərdənin arxsından ondan Rum dilində səs eşidəcəksən ki, mənası budur: "Vay, iffətli pərdəm yırtıldı!" Sonra müştərilərdən biri deyəcək ki, mən bu kəniz üçün 300 əşrəfi verirəm, çünki onun iffət və paklığı məni onu almağa rəğbətləndirdi. Kəniz o şəxsə ərəb dilində deyəcək: "Əgər Süleyman ibni Davud surətində görünsən və onun kimi padşahlığa çatsan yenə də sənin kənizliyinə razı olmayacağam. Öz malını zay edib məni almağa xərcləmə!"

Bu zaman qul satan deyəcək: "Mən sənin üçün nə çarə qılım ki, heç bir müştəriyə satılmağa razı olmursan. Onsuz da səni satmaqdan başqa çarəm yoxdur". Kəniz ona belə cavab verəcək: "Nə üçün tələsirsən? Biz az gözlə, mənim ürəyim meyl edəcək müştəri gəlib çatsın. Mən onun vəfasına və dindarlığına xatircəm olmalıyam". Sən elə bu zaman kəniz sahibinə yaxınlaş və de ki: "Mənim yanımda bir məktub vardır ki, onu yüksək mövqeli əsilzadələrdən biri nəvazişlə, Rum yazısı ilə və o dildə yazmışdır. Məktubda öz alicənablıq, səxavət, vəfalıq və yüksək mövqeyini açıqlamışdır. Bu məktubu o kənizə ver oxusun! Əgər bu məktubun sahibi üçün onu almağıma razı olsa mən o şəxsin tərəfindən vəkil olaraq bu kənizi onun üçün alacağam".

Bişr ibni Süleyman deyir: Həzrətin buyurduqlarının hamısı baş verdi. Mən də onun buyruqlarını yerinə yetirdim. Kəniz məktuba nəzər saldıqda ağladı və Əmr ibni Yezidə dedi:

*"Məni bu məktubun sahibinə sat!"*

Sonra çoxlu and içib dedi əgər məni bu məktubun sahibinə satmasan intihar edəcəyəm. Sonra mən kənizin qiyməti haqqında Əmr ilə çox mübahisə etdim. Nəhayət, İmam Əliyyən-Nəqi əleyhissəlamın mənə verdiyi məbləğlə razılaşdı. Pulu verib kənizi aldım. Kəniz şad oldu. Birlikdə Bağdadda kirayə etdiyim kiçik otağa gəldik. Otağa çatan zaman kəniz İmamın məktubunu öpüb gözləri üstə qoymağa, üzünə və bədəninə sürtməyə başladı. Mən təəccüblə soruşdum: "Sahibini tanımadığın məktubu nə üçün öpürsən?" Kəniz mənə belə dedi:

Ey aciz! Peyğəmbərin övlad və canişinlərinin yüksək mövqeləri haqqındakı sözlərimi eşitmək üçün diqqətlə mənə qulaq as, başıma gələn əhvalatı sənə danışım.

Mən, Rum padşahı Qeysərin övladı olan Yəşyuayın qızı Məlikəyəm. Anam Həzrət İsa əleyhissəlamın canişini Şəmun ibni Həmun ibni Səfanın övladlarındandır.

Mən on üç yaşında ikən babam Qeysər məni qardaşı oğluna ərə vermək istədi. O. öz sarayına İsa Peyğəmbərin həvarilərinin nəslindən, xristian alim və abidlərindən 300 nəfər, hörmət və rütbə sahiblərindən 700 nəfər və ordu əmirlərindən, qoşun başçılarından və tayfa sərkərdələrindən ibarət 14000 nəfər topladı. O, padşahlığı zamanında müxtəlif ləl-cəvahirat ilə bəzədilmiş qırx ayaqlı taxt-tacı gətirdilər. Öz büt və xaçlarını uca yerlərdə qoydular. Sonra Qeysər qardaşı oğlunu taxtın üstünə göndərdi. Keşişlər oxumaq üçün İncilləri əllərinə aldıqları zaman bütlərlə xaçlar başıaşağı yerə düşdülər. Taxtın ayaqları xarab oldu və taxt yerə çökdü. Hökmdarın qardaşı oğlu taxtdan yerə yıxılıb özündən getdi. Bu zaman keşişlərin rəngləri qaçdı və bədənləri titrəməyə başladı. Onların başçısı babama dedi: "Ey padşah! Bizi uğursuzluqlar baş verən bi işdən əfv olunmuş bil. Bu məsihi dininin tezliklə aradan gedəcəyini sübuta yetirir".

Babam bu hadisəni bəd fal kimi qiymətləndirib keşiş və alimlərə dedi: "Bu taxtı yenidən ayağa qaldırın, xaçları öz yelərinə qoyun və bu taleyi dönmüş bədbəxtin qardaşını gətirin, qızı ona ərə verək ki, bu qardaşın səadəti o biri qardaşın uğursuzluğunu ortadan qaldırsın".

Onlar belə də etdilər. İkinci qardaşı taxt üzərinə apardılar. Keşişlər İncil oxumağa başlayan zaman yenidən həmin hadisə baş verdi. Bu qardaşın uğursuzluğu da o biri qardaşın uğursuzluğu ilə eyni idi. Onlar bu işin sirrini başa düşəmədilər ki, bu o iki qardaşın uğursuzluğu deyil, əksinə bu bir rəhbərin səadətidir. Camaat dağılmışdğılar. Babam kədərli halda hərəmxanaya qayıdıb xəcalət pərdələri asdı. Gecə yuxuya getdikdə, yuxuda gördüm ki, Həzrət Məsih əleyhissəlam. Şəmun və bir dəstə həvalri babamın sarayına toplaşıblar. Babamın taxt bəzədiyi yerdə ucalığı səmaya çatan nurdan bir minbər var idi. Həzrət Məhəmməd səlləllahu əleyhi və alihi və səlləm. onun canişini və kürəkəni Əli ibni Əbu Talib əleyhissəlam. habelə bir dəstə imamlar və onların yüksək mövqeli övladları qədəmləri ilə sarayı nurlandırmışdılar. Həzrət içəri daxil olan kimi Məsih ədəb-ərkan və ehtiram ilə Xatəmülənbiyanı (s) qarşılamağa tələsərək irəli gedib o Cənabla qucaqlaşıb görüşdü. Bundan sonra Həzrət Peyğəmbər (s) "Ey Ruhullah! Sənin canişinin Şəmunun övladı Məlikəni bu bəxtiyar övladım üçün elçiliyə hazıram" - deyə buyurdu və imamət və xilafət bürcünün ayparası olan İmam Həsən Əsgəri əleyhissəlama işarə etdi: o. sən məktubunu mənə verdiyin şəxsin oğludur. Sonra Həzrət, Şəmuna nəzər salıb buyurdu: "İki dünyanın səadəti sənə üz gətiribdir. Öz qohumluğunu Məhəmməd səlləllahu əleyhi və alihi və səlləmin ailəsi ilə birləşdir!" Şəmun dedi: "Birləşdirdim". Bu halda onların hamısı birlikdə o minbərin üzərinə qalxdılar. Həzrət Rəsul (s) bir xütbə oxudu və Həzrət Məsih ilə birgə məni Həsən Əskəri əleyhissəlama nikahladılar. Həzrət Rəsul (s) Həvarilər ilə birgə şəhadət verdilər. Həmin səadətli yuxudan oyandıqda babamın məni öldürəcəyindən qorxub ona yuxumu danışmadım. Və bu sirli xəzinəni sinəmdə gizlətdim. İmamət səmasının günəşinə olan məhəbbət alovu günbə-gün sinəmdə şölələnirdi. Belə ki. səbir və təmkin sərmayəsi məni faniliyə sürükləyirdi. O həddə qədər ki, yemək içmək mənə haram olmuşdu. Rəngim gündən-günə saman tək saralıb solurdu. Bədənim zəifləyir və xəlvəti eşq zahirdə aşkar olurdu. Rum şəhərlərində babamın məni müali etmək üçün dəvət etmədiyi bir təbib və həkim qalmadı. Onlardan mənim dərdimin dəvasını soruşur, amma heç bir faydası olmurdu. Mənim dərdimin əlacından məyus olduqdan sonra bir gün mənə dedi: "Ey gözümün işığı! Dünyada ürəyində qalmış bir arzu-diləyin vardırmı ki, sənin üçün yerinə yetirim?" Dedim: "Ey mənim babam! Təskinlik qapılarını üzümə bağlı görürəm. Əgər sənin zindanlarında olan müsəlman əsirlərin işgəncə və əzab-əziyyətini aradan qaldırsan, kəndir və zəncirləri onlardan açsan və onları azad etsən ümidvaram Həzrət Məsih və anası mənə şəfa verərlər". O, bu diləyimi yerinə yetirdikdə özümdən azacıq sağlamlıq büruzə verib bir az yemək yedim. Çox şad oldu və bundan sonra müsəlmanlara hörmətlə yanaşmağa başladı. On dörd gün keçəndən sonra yuxuda gördüm ki, aləmlərin ən üstün Qadını Fatimeyi Zəhra əleyha salam məni görməyə gəlibdir. Həzrət Məryəm behişt hurilərindən olan min kəniz ilə birgə o Həzrətin xidmətində idilər.

*(Davamı 14-cü səhifədə)*

# ƏSRİN İMAMI, YAXUD AY İŞIĞINDA MƏKTUB

*(Əvvəli 12-ci səhifədə)*

Məryəm mənə dedi: "Bu xatun qadınların ən üstünü və sənin ərin İmam Həsən Əsgəri əleyhissəlamın anasıdır". Bu vaxt xanımın ətəyindən tutaraq ağladım və şikayətləndim ki, İmam Həsən əleyhissalam mənə cəfa edir, məni görməyə gəlmir. O Həzrət buyurdu: "Necə mənim oğlum sənin görüşünə gəlsin bir halda ki, Allaha şərik qoşursan və tərsa məzhəbindəsən. İndi bacım İmran qızı Məryəm sənin dinindən bezar olduğunu Allaha bildirir. Əgər istəyirsən ki, Allah Təala və Məryəm səndən razı olsunlar və İmam Həsən Əskəri Əleyhissalam sənin görüşünə gəlsin. Bu halda de! Əşhədu ən la ilahə illəllah (şəhaədət verirəm ki, Allahdan başqa heç bir tanrı yoxdur). Və əşhədu ənnə Muhəmməd Rəsulullah" (şəhadət verirəm ki, Məhəmməd (s) Allahın elçisi və peyğəmbəridir). Bu iki kəlmeyi-teyyibəni (pak kəlməni) tələffüz edən kimi qadınların seyyidəsi məni öz bağrına basdı və mənə ürək-dirək verib dedi: "İndi övladımın sənin yanına gəlməyinin intizarında ol! Mən onu sənin yanına göndərəcəyəm". Bu halda yuxudan oyandım. O iki kəlməye-teyyibəni dilimdə tələffüz edir, o Həzrətlə görüşmək intizarını çəkirdim. Sonrakı günün axşamı olduqda yuxuya daldım. O Həzrəti cəmal günəşi doğdu. Dedim: "Ey mənim dostum! Ürəyimi öz məhəbbətinin əsiri etdikdən sonra nə üçün öz camalının ayrılığı ilə mənə bu cür cəfa etdin?"

Buyurdu: "Gec gəlməyim sənin müşrik olmaqlığın səbəbindən idi. Bu ayrılığın əvəzi üçün Allah Təala bizimlə səni zahirdə bir-birimizə qovuşduran günə kimi mən hər axşam sənin yanında olacağam".

O vaxtdan indiyədək bir gecə də keçməyibdir ki, mənim ayrılıq dərdimə görüş şərbəti ilə dava-dərman etməmiş olsun.

Bişr ibn Süleyman dedi: "Bəs əsirlər arasına necə düşmüsən?" Dedi: "İmam Həsən Əsgəri əleyhissalam bir gecə mənə xəbər verdi ki, filan gün babam mü-səlmanlarla müharibəyə qoşun göndərəcək və özü də qoşunun arxası ilə gedəcək. Kəniz və xidmətçilərin arasına səni tanımayacaqları bir şəkildə özünü sal və babanın arxası ilə yola düş və filan yol ilə get!" Mən də o cür etdim.

Müsəlman qoşun kəşfiyyatçıları bizimlə rastlaşıb bizi sənin gördüyün kimi oldu. İndiyədək səndən başqa heç kəs mənim Rum padşahının qızı olduğumu bilməyib. Qənimət bölgüsü zamanı payına düşdüyüm qoca kişi adımı soruşduqda ona adımın Nərcis olduğunu dedim. Qoca kişi dedi: "Bu kəniz alarındandır".

Bişr dedi: "Bu çox təəccüblüdür ki, bizanslı olduğun halda ərəb dilini çox yaxşı bilirsən?!" Nərcis dedi: "Babamın mənə qarşı olan sevgisindəndir ki, o istəyirdi mən gözəl ədəb-ərkanları mənimsəyim. Ərəb və bizans dillərini bilən qadın tutmuşdu ki, hər səhər və axşam gəlib ərəb dilini mənə öyrətsin. Bununla da ərəb dilini öyərəndim".

Bişr deyir: Mən onu Surrə-mən-rəa şəhərinə, İmam Əliyyən-Nəqi əleyhissəlamın hüzuruna çatdırdım. Həzrət kənizciyə xitabən buyurdu: "Allah subhanəhu və təala sənə nə cür İslam dininin əzizliyini xristian dininin zəlilliyini, Məhəmməd (s) və övladlarının şərəf və yüksək mövqeyini aydınlatdı?"

Kəniz dedi: "Ey Allah Rəsulunun övladı! Məndən yaxşı bildiyin bir şeyi nə cür sənin üçün tərif edim?"

Sonra Həzrət buyurdu: "Sənə hörmət etmək istəyirəm. Hansı sənin üçün yaxşıdır; indi sənə on min əşrəfi verim yoxsa əbədi şərəf müjdəsi?"

Dedi: "Malı yox, şərəf müjdəsini istəyirəm".

Həzrət buyurdu: "Sənə bir övlad müjdəsi verirəm ki, dünyanın qərbinin və şərqinin padşahı olacaq. Yer kürəsi zülm və cəfa ilə dolduqdan sonra, o gəlib yer kürəsini ədalətlə dolduracaq".

Kəniz dedi: "Bu övlad kimdən vücuda gələcək?" Həzrət buyurdu: "O şəxsdən ki, Həzrət Peyğəmbər (s) səni onun üçün Həzrət İsa peyğəmbərdən istəmişdi".

Sonra Həzrət soruşdu: "Həzrət Məsih və canişini səni kimə nikahladılar?" Dedi: "Sənin övladın İmam Həsən Əsgəri əleyhissalama". Həzrət buyurdu: "Onu tanıyırsanmı?" Dedi: "Qadınların ən üstününün əli ilə müsəlman olduğum gecədən indiyə kimi bir gecə də sovuşmayıbdır ki, o məni görməyə gəlməmiş olsun".

Bundan sonra Həzrət xadimi Kafuru səsləyib ona buyurdu: "Get, bacım Həkimə xatunu çağır gəlsin!" Həkimə daxil olduqda Həzrət buyurdu: "Bu sənə haqqında danışdığım kənizdir". Həkimə xatun çox şad oldu və əhatəsinə alaraq ona mehribanlıq göstərdi. İmam əleyhissəlam buyurdu: "Ay Allah Rəsulunun qızı! Onu öz evinə apar və dinin vacibat sünnətlərini ona öyrət. Çünki o Həsən Əskəri əleyhissəlamın arvadı və Qaim əleyhissəlamın anasıdır". Məşhur hədisçilərdən Kuleyni, ibn Babəveyh, Şeyx Tusi, Seyyid Murtəza və başqaları mötəbər sənədlər əsasında, Həkimə xatundan rəvayət etmişlər ki, o deyir: Bir gün İmam Həsən Əskəri əleyhissalam mənim evimə gəlib Nərcis xatuna iti baxışla nəzər saldı. Mən dedim: "Əgər onu buyurursunuzsa sizin hüzurunuza göndərim". Buyurdu: "Ey bibi! Bu iti baxış təəccüb üzündən irəli gəlib. Çünki bu tezlikdə Allah-Təala ondan bir övlad dünyaya gətirəcək. Aləm zülmlə dolmuş ikən, o, gəlib bütün aləmi ədalətlə dolduracaq". Həzrətdən soruşdum: "Onu sizin yanınıza göndərimmi?" Buyurdu: "Əziz atamdan bu iş üçün icazə al!"

Həkimə xatun deyir: Paltarlarımı geyinib qardaşım İmam Əliyyən-Nəqi əleyhissəlamın evinə getdim. Salam verib əyləşdim. Mən söhbətə başlamazdan əvvəl Həzrət buyurdu: "Ey Həkimə! Nərcisi oğlumun yanına göndər!" Dedim: "Ey mənim ağam! Elə həmin məsələyə görə, səndən icazə almaq üçün hüzuruna gəlmişəm". Buyurdu: "Ey bərəkət sahibli əziz! Allah istəyir səni belə bir savaba şərik etsin. Bu işdə səni vasitə qərar verməklə istəyir ki, sənə xeyir və səadətdən ibarət olan böyük, əzəmətli bir mənfəət lütf etsin".

Həkimə deyir tezliklə evimə qayıtdım və o comərdlik və səadət mədəninin təzə gəlinlə ilk görüş gecəsini öz evimdə vücuda gətirdim. Bir neçə gündən sonra o ulu bəxtiyarla çiçək görünüşlünü parıltılı günəşin evinə, yəni atasının evinə apardım. Bir neçə gündən sonra imamətin parlaq günəşi aləmin qərbində əbədi olaraq batdı (yəni İmam Əliyyən-Nəqi əleyhissalam dünyasını dəyişdi) və xilafət bürcünün ayı olan İmam Həsən Əsgəri əleyhiyysalam imamətdə onun canişini oldu. Mən atasının zamanında olduğu kimi tez-tez o bəşər İmamının hüzuruna gedirdim.

Bir gün Nərcis xatun gəlib mənə dedi: "Ey xatun!" Ayağını uzat ayaqqabını çıxarım!"

Dedim: Mənim sahibim sənsən. Heç vaxt qoymaram ki, ayağımdan ayaqqabını çıxarasan və mənə xidmət edəsən. Gərək mən sənə xidmət edəm". İmam Həsən Əsgəri əleyhissalam bu sözləri məndən eşitdikdə dedi: "Allah Sənə xeyirli əvəz versin, ey bibi!"

Gün batana qədər o Cənabın hüzurunda əyləşdim. Sonra kənizimi səsləyib dedim: "Gətir paltarlarımı, mən gedim".

Həzrət buyurdu: "Ey bibi! Bu gecə bizim yanımızda qal! Bu gecə əziz balamız dünyaya gələcək ki, küfr və azğınlığın yayılması ilə yer öldükdən sonra Allah-Təala yeri onun vasitəsi ilə elm, iman və hidayətlə dirildəcək". Dedim: "Ey mənim ağam! O, kimdən dünyaya gələcək? Mən Nərcisdə heç bir hamiləlik əlaməti görmürəm".

Buyurdu: "Nərcisdən olacaq, başqasından yox".

Bundan sonra Nərcisin ön və arxa tərəflərini axtarıb müşahidə etdim, lakin onda heç bir əsər-əlamət tapa bilmədim. Qayıdıb bunu həzrətə dedim. Həzrət təbəssümlə dedi: "Sübh çağı onda hamiləlik əlamətləri aşkar olacaq. Onun sərgüzəşti Musanın anasının sərgüzəşti kimidir ki, doğum zamanına qədər onda heç bir dəyişiklik baş vermədi. Bu səbəbdən də heç kəs onun (hamiləliyi) haqqında xəbərdar olmadı. Çünki Firon Həzrət Musanı axtardığı üçün bütün hamilə qadınların qarınlarını yırtırdı. Bu işdə bu uşağın halı da Həzrət Musa kimidir".

Başqa rəvayətə görə Həzrət buyurmuşdur: "Biz peyğəmbərlərin canişinləri qarında deyil" böyürdə olarıq. Ananın bətnindən yox, budundan dünyaya gələrik. Çünki biz Allah-Təalanın nurlarıyıq. O, çirk və murdar şeyləri bizdən uzaqlaşdırmışdır". Həkimə deyir: "Mən Nərcisin yanına gedib bu halı ona söylədim". O dedi: "Ey xatun! Özümdə heç bir əsər-əlamət müşahidə etmirəm". Beləliklə, gecəni orada qaldım. İftar Edib Nərcisin yanında yatdım. Hər saat ondan xəbər alırdım. O da rahatca yatmışdı. Get-gedə heyrətim artırdı. Bu gecə başqa gecələrə nisbətən daha tez gecə namazına oyandım, gecə namazı qılmağa başladım, vitr namazına çatdıqda, Nərcis yuxudan oyandı, dəstəmaz alıb gecə namazı qıldı. Mən nəzər saldıqda, aldadıcı sübhün açıldığını gördüm. Az qaldı ki, Həzrətin verdiyi vədəyə qarşı ürəyimdə bir şübhə yaransın. Gözlənilmədən İmam Həsən Əskəri əleuhissalam öz hücrəsindən səslədi: "Şəkk etmə! Vaxtı yaxınlaşıbdır". Bu zaman Nərcisdə bir sıxıntı hiss etdim və onun başının üstünə gəldim, qorxmasın deyə, Allahın adını zikr etdim. Həzrət yenidən səslədi ki, "Qədr" surəsini onun üçün oxu! Bundan sonra ondan soruşdum: "Halın necədir?" dedi ki, Ağamın buyurduqları aşkar oldu. "Qədr" surəsini oxumağa başladığım zaman gördüm ki, anasının bətnindəki uşaq surəni mənimlə birgə oxuyur. Sonra o, mənə salam verdi. Mən qorxdum. Həzrət səslədi: "Təəccüb etmə, Allah Təalanın qüdrətindəndir ki, bizim uşaqlarımıza danışmaq hikməti verib və bizi də böyüdüyümüz zaman yer üzündə Öz hüccəti yaradıb". İmamın sözləri tamam olduqdan sonra Nərcis gözlərimdən qeyb oldu. Elə bil ki, mənimlə onun arasında pərdə asmışdılar. Fəryad edərək İmam Həsən Əskəri əleyhissalamın yanına qaçdım. Həzrət buyurdu: "Qayıt, ey bibi! Onu öz yerində görəcəksən". Qayıtdıqda pərdə çəkilmişdi. Nərcisdə bir nur müşahidə etdim ki, gözlərimi qamaşdırdı. Həzrət Mehdini gördüm, üzü qibləyə dizləriylə səcdəyə gedib şəhadət barmağını səmaya tərəf dikəldib deyir: "Əşhədu ən la ilahə illəllah vəhdəhu la şərikə ləh və ənnə cəddi Rəsulullah və ənnə əbi Əmirəlmumininə vəsiyyu Rəsulillah".

Beləliklə, bütün imamları bir-bir saydı və özünə çatanda buyurdu: Allahummə ənciz li vədi və ətmim li əmri və səbbit vətəti və əmləil-ərzə bi ədlən və qistən" (Yəni, Pərvərdigara mənə buyurduğun yardım vədəsinə vəfa et. Mənim xilafət və imamət işimi tamamla. Mənim düşmənlər üzərində fəth və intiqamımı dəyişməz və sabit et. Dünyanı mənim vasitəmlə ədalətlə doldur).

Başqa hədisə görə Həzrət Mehdi Əleyhissalam doğulduqda ondan bir nur saçaraq göyün üfüqlərinə səpələndi. Göydən yerə doğru hərəkət edən ağ quşlar gördüm. O quşlar öz qanadlarını Həzrətin başına, üzünə və bədəninə sürtür və uçub gedirdilər. Bu vaxt İmam Həsən Əskəri əleyhissalam məni səsləyib dedi: "Ey bibi! Oğlumu götür və mənim yanıma gətir!" Qucağıma aldıqda onu sünnət olunmuş, göbəyi kəsilmiş və pak-pakizə gördüm. Sağ qolunda bu ayə yazılmışdı "Caəl-həqq və zəhəqəl-batil innəl-batilə kanə zəhuqa". Yəni: "Haqq gəldi batil məhv oldu, həqiqətən, batil məhv və yox olmalıdır". (İsra surəsi, ayə 81)

Həkimə deyir: O səadətli övladı Həzrətin yanına apardım. Atasını görən kimi salam verdi. Həzrət onu əlinə alıb mübarək dilini onun gözlərinə, ağzına və qulaqlarına sürtdü. Sol əlinin içində otuzdurdu. Başını sığallayıb dedi: "Ey oğul! Allahın qüdrətiylə danış!"

Mehdi əleyhissalam istiazə (əuzu billahi minəş-şeytanir-rəcim) edib buyurdu: "Bismillahir-rəhmanir-rəhim. "Və nuridu ən nəmunnə ələl-ləzinə ustuzifu fil-ərz və nəcələhum əimmətən və nəcələhum əlvarisinə və numəkkinə ləhum fil-ərzi və nuriyə Firəvnə və Hamanə və cunudəhuma minhum ma kanu yəhzərun" (Qisəs surəsi, ayə 5)

Mötəbər hədislərə əsasən bu ayə, o Həzrətin özünün və uca ata-babalarının (Əhli-beytin) haqqında nazil olmuşdur. Ayənin zahiri tərcüməsi budur ki: "İstəyirik yer üzündə zülmkarların zəif halına saldıqları bir dəstə camaata ehsan edib onları din imamları edək. Və istəyirik onları yer üzünün varisləri təyin edib onlara yer üzündə iqtidar və fəth bağışlayaq, Firona və Hamana və onların qoşunlarına o imamlardan qorxduqları şeyi göstərək".

Sonra Həzrət Mehdi Əleyhissalam Həzrət Peyğəmbərə, Həzrət Əmirəl-mömininə və atasına qədər olan bütün imamlara salavat göndərdi. Bu halda quşlar o Cənabın mübarək başının lap yaxınlığına toplaşdılar. Həzrət quşlardan birini səsləyib dedi: "Bu uşağı götür, yaxşı mühafizə et və hər qırx gündə bir dəfə bizim yanımıza gətir!" Quş o Cənabı alıb səmaya tərəf qanad çaldı. Qalan quşlar da onun arxasınca uçdular. Bu vaxt İmam Həsən Əskəri əleyhissalam buyurdu: "Səni O kəsə tapşırdım ki, anası Həzrət Musanı Ona tapşırmışdı". Nərcis xatun ağlamağa başladı. Həzrət buyurdu: "Sakit ol! Səndən başqa birinin döşündən süd əmməyəcək, tezliklə onu sənə qaytaracaqlar, necə ki, Həzrət Musanı anasına qaytardılar. Necə ki, Allah Təala buyurmuşdur ki, beləliklə, Biz Musanı anasına qaytardıq ki, anasının gözləri aydın olsun".

Həkimə soruşdu: "Sən Mehdini tapşırdığın quş kim idi?"

Buyurdu: "O, Ruhul-qüds (müqəddəs ruh, Cəbrail) idi. Ruhul-qüds imamlar üçün Allah tərəfindən bir gözətçidir ki, onların işlərində müvəffəq, xətalardan uzaq edir və elm ilə zinətləndirir".

Həkimə deyir: 40 gündən sonra mən Həzrətin hüzuruna getdim. Evə daxil olarkən, gördüm ki, evin içində bir uşaq gəzir. Soruşdum: "Ey mənim ağam! Bu iki yaşlı uşaq kimdir?"

Həzrət təbəssüm edib buyurdu: "Peyğəmbərlərin övladları və canişinləri İmam olarlarsa, başqa uşaqlardan fərqli olaraq daha tez inkişaf edərlər. Onların bir aylıqlarının başqalarının bir illiyi kimi olar, analarının bətnində danışar, Quran oxuyar və Allaha ibadət edərlər. Süd əmdikləri zaman mələklər onların fərmanlarına tabe olar, hər səhər-axşam onlara nazil olarlar".

Həkimə deyir ki, İmam Həsən Əskəri əleyhissalamın zamanında hər 40 gündən bir onun hüzuruna gedirdim. O vaxta qədər ki, Həzrət Həsən Əskəri əleyhissalamın vəfatından bir neçə gün qabaq onu kamil bir kişi sifətində gördüm. Mən onu tanımadım, qardaşım oğlundan soruşdum: "Bu kişi kimdir ki, mənə buyurursan onun yanında əyləşim?"

Buyurdu: "Bu, Nərcisin oğlu və mənim özümdən sonrakı canişinimdir. Tezliklə mən sizin aranızdan gedəcəyəm, gərək onun sözlərini qəbul və onun əmrlərinə itaət edəsən".

Bir neçə gündən sonra İmam Həsən Əskəri əleyhissalam müqəddəs aləmə köçdü. İndi mən Sahibbəzzaman əleyhissalamla hər gün görüşürəm, hər nə haqqında soruşsam, mənə cavab verir. Bəzən elə olurdu ki, istədiyim sualı etməmişdən qabaq cavabını verirdi. Başqa bir rəvayətdə gəlibdir ki, Həkimə xatun deyir: Həzrət Sahibəzzaman əleyhissalamın doğulmasından üç gün sonra onunla görüşmək arzusuna düşdüm. İmam Həsən Əskəri əleyhissalamın hüzuruna gedib soruşdum: "Mənim mövlam hanı?"

*(Davamı var)*